# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN NAİLƏ VƏLİXANLI HAQQINDA SÖYLƏDİKLƏRİ

Nailə xanım 55 manata laborant vəzifəsində işlədi. Çoxları bu maaşla qənaətlənməyib işdən getdilər. Nailə xanım isə işlədi və indi o, keçmiş SSRİ şərqşünasları arasında tanınmış şəxsiyyətdir. Onun əsərlərindən iqtibaslar verirlər. Deməli, tanınmış alimdir. İqtibasın verilməsi həmin alimin yüksək səviyyəli alim olduğunu göstərir. Mən yenə deyirəm, çox sevinirəm ki, qadınlar arasında Sara xanım (Aşurbəyli), Məşədi xanım (Nemətova), Şövkət xanım (Tağıyeva) kimi elmlər doktorları içərisində Nailənin də adı vardır. O, hələ bir az gecikib. Bu ada o, çoxdan layiq olmalı idi.

**Ziya Bünyadov,**
**akademik**

Nailə Vəlixanlı IX-XII əsrlərdə ərəb müəlliflərinin Azərbaycan haqqında verdikləri məlumatları saf-çürük etmiş, elmi süzgəcdən keçirmişdir. Bu çətin işin öhdəsindən layiqincə gəlmək üçün təkcə ərəb dilini kamil bilmək kifayət deyil. Ona görə də hər hansı bir əsəri daha əhatəli, daha məzmunlu araşdırmaq üçün başqa dilləri də bilmək və həmin dillərdə olan tədqiqatlarla da tanış olmaq tələb olunurdu.

**Teymur Bünyadov,**
**akademik**

Nailə xanımın əsərləri və nəşr etdirdiyi kitabları ilə tanışam. Burada söhbət Azərbaycanın tarixinin indiki dövrdə keçirdiyi evolyusiya məsələsindən gedir. Azərbaycan tarixinin tədqiqatının ən məsul və ən çətin dövrü başlamışdır. Əsas xətt prinsipial yoxdur. Nailə xanımın əsərindən və burada opponentlərə\ verdiyi cavablardan məlum olur ki, o, Azərbaycan tarixini düzgün elmi mövqedən araşdıraraq, tədqiqatında konyukturaya uymamışdır. Mən bu gün ona ürək açıqlığı ilə səs verəcəyəm. O, elmlər doktoru adına layiqdir...

**Cəmil Quliyev,**
**akademik**

Muzeyə rəhbərlik etdiyi on ildən artıq bir dövrdə Nailə Vəlixanlı bu zəngin mədəniyyət ocağını dünyanın qabaqcıl muzeyləri səviyyəsinə çatdırmış, Azərbaycan xalqının ən qədim dövrlərdən XX əsrədək tarixi inkişaf yolunu əks etdirən ekspozisiyasının qurulması, müxtəlif mövzulu sərgi, konfrans, simpozium və seminarların təşkili işlərinə rəhbərlik etmiş, muzey materiallarına həsr olunmuş elmi əsərlərin, o cümlədən kitab-albom, kataloq, buklet və bələdçi kitablarının nəşrinə nail olmuşdur. Onun muzeyə rəhbərliyi dövründə dövlətin dəstəyi və şəxsən ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə Milli Azərbaycan Tarixi Muzeyi ölkənin ən iri, dünya əhəmiyyətli muzeyinə çevrilmişdir. Muzey Türkiyə, İran, Suriya, Norveç, Macarıstan, Bolqarıstan, Ukrayna, Belarus, Özbəkistan və başqa ölkələrin qabaqcıl muzeyləri ilə əlaqəni gündən-günə gücləndirir. Nəticədə tariximiz yeni faktlarla zənginləşir, qaranlıq qalan neçə-neçə səhifəyə işıq düşür.

**Mahmud Kərimov,**
**akademik**

Nailə Vəlixanlı ərəbdilli yazılı mənbələr əsasında orta əsrlər Azərbaycan tarixinə dair tədqiqatların, o cümlədən bir neçə kitabın, 200-dən artıq elmi məqalənin müəllifidir. Onun əsərlərində müxtəlif orta əsr mənbələrinin müqayisəli təhlili nəticəsində Azərbaycanın VII-XII əsrlər dövrünün tarixinə və tarixi coğrafiyasına dair müxtəlif məsələlər işıqlandırılmış, ölkənin və həmhüdud vilayətlərin sərhədləri müəyyənləşdirilmiş, mütəxəssislərin ümumi rəyinə görə elmdə son vaxtlaradək hakimlik edən erməni-gürcü ənənəsinin sındırılmasınma cəhd göstərilmişdir. Bununla yanaşı, ərəb istilasının ilk və sonrakı mərhələləri, Azərbaycandakı ərəb inzibati idarə sistemləri, ərəb işğalının nəticə, təsir və izləri, Azərbaycanın o dövr şəhərləri və ticarəti, eləcə də Xəzər dənizinə dair müxtəlif mənbələrdəki məlumatlar hərtərəfli və dərin tədqiq edilmişdir.

**İsmayıl Hacıyev,**
**akademik**

Görkəmli tarixçi, ilk mənbələrin, xüsusilə orta əsr ərəb mənbələrinin ən yaxşı bilcisi Nailə Vəlixanlının "Naxçıvan - ərəblərdən monqollaradək (VII-XII əsrlər)" kitabı Azərbaycan tarixşünaslığına çox qiymətli töhfədir. Bu sanballı tədqiqatda ilk dəfə olaraq, Naxçıvanın təxminən 600 illik bir dövrünü əhatə edən tarixi müxtəlif dillərdə olan ilk mənbələrin, ədəbiyyatın dərin elmi təhlili və müqayisəli tənqidi yolu ilə xronoloji ardıcıllıqla tədqiq edildi. Müəllif, fikrimizcə, haqlı olaraq siyasi tarixə üstünlük verir. Görkəmli alimin ən mühüm elmi xidməti budur ki, VII-XII əsrlər Naxçıvanını "erməni şəhəri" kimi tədqiq edən erməni saxtakarlarına rəğmən, Naxçıvanın məhz Azərbaycan şəhəri olmasını, əlverişli mövqedə yerləşməsi ilə əlaqədar ərəb işğalları dövründə hərbi-siyasi baza rolunu oynamasını, Səlcuqlar və Atabəylər dövründə isə çox mühüm siyasi-iqtisadi və mədəni mərkəzə çevrilməsini elmdə ilk dəfə olaraq təkzibolunmaz faktlar əsasında sübut edir, ön plana çəkir.

**Yaqub Mahmudov,**
**akademik**

Nailə Vəlixanlı ilə mənim elmi əməkdaşlığım ən çox Şərq-Qərb tədqiqat mərkəzindəki birgə fəaliyyətimizlə bağlıdır. Ona görə də Nailə xanım haqqında təəssürat və fikirlərimin də məhz Şərq-Qərb kontekstində söylənməsi təsadüfi deyildir. "İpək yolu" jurnalının ərsəyə gəlməsində də Şərq-Qərb arasında olan şəxslərdən ən çox mənəvi haqqı olan şəxslərdən biri kimi Nailə Vəlixanlının böyük xidməti olmuşdur.

**Səlahəddin Xəlilov,**
**professor**

Qeyd etmək lazımdır ki, Azərbaycan alimləri Nailə xanım tərəfindən görülən işləri və onun istedadını həmişə yüksək qiymətləndirirlər. O isə öz növbəsində, həmkarlarının uğurlarına sevinməyi və nailiyyətlərinə qiymət verməyi bacaran bir tədqiqatçıdır.

Akademik həm də çox maraqlı insandır. Onun əqli ilə qəlbi bir-biri ilə tam harmoniya təşkil edir, bir şəxsiyyət kimi isə hamıya qarşı səmimidir. Yəqin ki, bu hisslərə cavab olaraq Nailə xanımı tanıyan hər kəs onunla ünsiyyətdən zövq alır, ona qarşı hörmət və ehtiram hissi duyur. Bu, həm də ondan irəli gəlir ki, dünyanın dərkində olan saflığı onun timsalında müdrikliklə və düşüncə dərinliyi ilə vəhdət təşkil edir. Nailə Vəlixanlı əsl azərbaycanlı ziyalı qadın nümunəsidir. Həssas, dözümlü, ağıllı və bununla yanaşı, çox prinsipial, təkidli və enerjilidir.

**Nərgiz Axundova,**
**professor**